# 2021

## Ümumdünya Antidopinq Məcəlləsində

# dəyişikliklər




AMADA
STAY CLEAN

# Mövzular


1 **Ümumdünya Antidopinq Məcəlləsi 2021**

2 **Beynəlxalq Standartlar**

- Təhsil üzrə yeni Beynəlxalq Standart
- Nəticələrin Emalı üzrə yeni Beynəlxalq Standart
- ADeL Elektron Təlim Platforması

3 **Əsas Anlayışlar**

- İdmançı kateqoriyaları
- İdmançı Köməkçi Heyəti
- Yarış Müddəti

4 **Dopinq Nəzarəti 2021**

- Dopinq Nəzarəti Prosesi (DNP)
- Sidiyin Nisbi Sıxlığı
- Qan Toplanması Prosesi
- Məkan Məlumatı

5 **Qadağan Edilmiş Siyahı 2021**

- Qadağan Edilmiş Siyahıda dəyişikliklər
- Monitorinq proqramında dəyişikliklər

6 **Terapevtik İstifadə üçün İstisnalar (Tİİ)**

- Tİİ üçün müraciət
- Müraciət şərtləri
- Retroaktiv Tİİ üçün müraciət
- Tİİ ərizə forması
- TİİK qərarı
- İnformasiya Məxfiliyi
- Tİİ-nin son istifadə tarixi

7 **Antidopinq Qayda Pozuntuları (AQP) 2021**

- AQP üzrə dəyişikliklər və yeniliklər
- Sanksiyaların tətbiqi və dəyişikliklər

8 **İdmançıların Antidopinq Hüquqları Aktı**

- İdmançının əsas hüquqları
- Məcəllənin tətbiq edilməsi

9 **Məxfi Məlumatlar**

10 **İdmançı üçün elektron poçt ünvanının vacibliyi**

# 1 Ümumdünya Antidopinq Məcəlləsi 2021

- Məcəllənin əsas məqsədi – idmançıların təmiz idmanda iştirak etmək hüququnu təmin etməkdir.
- Yeni Məcəllə 1 yanvar 2021-ci ildən etibarən qüvvəyə minir.



## Ümumdünya Antidopinq Məcəlləsi
2021

https://www.wada-ama.org/en/resources/the-code/2021-world-anti-doping-code

# 2 Beynəlxalq Standartlar

## Bütün Beynəlxalq Standartlar yenilənmişdir.

https://www.wada-ama.org/en/what-we-do/international-standards

- İdmanda Qadağan edilmiş Maddələr üzrə Beynəlxalq Standart
- Terapevtik İstifadə üçün İstisnalar üzrə Beynəlxalq Standart
- Test və Təhqiqat üzrə Beynəlxalq Standart
- Laborator müayinələr üzrə Beynəlxalq Standart
- Şəxsi Məlumatların Qorunması üzrə Beynəlxalq Standart
- İmza edən Tərəflərin Məcəlləyə Uyğunluğu üzrə Beynəlxalq Standart

**Beynəlxalq Standartlar siyahısına 2 yeni standart əlavə edilib:**

Yeni Təhsil üzrə Beynəlxalq Standart

https://www.wada-ama.org/en/resources/the-code/2021-international-standard-for-education-ise

Yeni Nəticələrin Emalı üzrə Beynəlxalq Standart

https://www.wada-ama.org/en/resources/the-code/2021-international-standard-for-results-management-isrm





# Təhsil üzrə Beynəlxalq Standart

İdman ruhunu aşılamaq və təmiz idman mühitini inkişaf etdirmək üçün dəyərlərə əsaslanan təhsil proqramlarının hazırlanması, həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsi məqsədini daşıyır.

**Antidopinq mövzusunda olan bütün təlim və tədris materialları yalnız AMADA ilə razılaşdırıldıqdan sonra tədris edilə bilər.**

**Yeni Beynəlxalq Standartlara riayət olunması idman sahəsində fəaliyyət göstərən bütün təşkilatlar üçün məcburidir.**

https://www.wada-ama.org/en/resources/the-code/2021-international-standard-for-education-ise



# Nəticələrin Emalı üzrə Beynəlxalq Standart

Standartın məqsədi - antidopinq qayda pozuntularının təqib edilməsi üzrə müxtəlif mərhələlərdə prosedur addımları, mübahisələrin dinlənilməsi və müvafiq qərarların qəbul edilməsi qaydalarını tənzimləmək, habelə bunlara dair Antidopinq Təşkilatlarının əsas vəzifələrini müəyyən etməkdir.

**Nəticələrin Emalı üzrə Beynəlxalq Standart bütün antidopinq təşkilatları üçün məcburidir.**

https://www.wada-ama.org/en/resources/the-code/2021-international-standard-for-results-management-isrm




ADeL

# Elektron Təlim Platforması

*ÜADA saytında maarifləndirmə üzrə elektron təlim platforması:*

https://adel.wada-ama.org/en

Burada siz rahatlıqla antidopinq sahəsinə aid müxtəlif tədris materialları ilə tanış ola bilərsiniz.

Tokio-2021 Yay Olimpiya Oyunları üçün **“ADeL for Tokyo 2020 Olympics”** adlı xüsusi elektron təlim platforması yaradılmışdır.

ADeL for Tokyo 2020 Olympics - **İdmançı və məşqçilər** üçün Olimpiada Elektron Təlim Platformasıdır.

Olimpiadada iştirak edəcək **idmançılar və idmançının köməkçi heyəti (əsasən məşqçilər və həkimlər)** mütləq şəkildə **“ADeL for Tokyo 2020 Olympics”** elektron təlim platformasından keçib sertifikat almalıdırlar.



# ƏSAS ANLAYIŞLAR

## İdmançı kateqoriyaları



**Yeni** *Xüsusi(qorunan) şəxslər*

Antidopinq qayda pozuntusu anında

- 16 yaşa çatmamış;
- 18 yaşa çatmamış Qeydiyyata alınmış Test Qrupuna (QTQ) daxil olmayan və açıq kateqoriyada beynəlxalq yarışlarda iştirak etməmiş;
- Yaşından asılı olmayaraq hüquqi meyarlara əsasən fəaliyyət qabiliyyəti olmayan və ya məhdud olan şəxs.

**! Bu kateqoriyada olan idmançılar üçün güzəştli sanksiyalar tətbiq oluna bilər.**



**Yeni** *Bədən tərbiyəsi ilə peşəkar səvviyədə məşğul olan şəxs*

- Antidopinq qayda pozuntusunun törədilməsi tarixindən əvvəl beş il ərzində beynəlxalq səviyyəli və ya milli səviyyəli idmançı olmayan, beynəlxalq yarışda açıq kateqoriya üzrə hər hansı bir ölkəni təmsil etməyən və ya hər hansı beynəlxalq federasiyanın və ya milli antidopinq təşkilatının qeydiyyata alınmış test qrupuna daxil olmayan və ya məkan məlumatını təqdim etməyən, milli antidopinq qurumunun qaydaları ilə müəyyən edilən fiziki şəxs;

**Bu kateqoriyada olan idmançılar üçün güzəştli sanksiyalar tətbiq oluna bilər.**



# İdmançının köməkçi heyəti

- Məşqçi
- Təlimçi
- Menecer
- Agent
- Komanda üzvü
- Vəzifəli şəxs
- Tibb işçisi
- Valideyn
- İdman yarışında iştirak edən və ya ona hazırlaşan idmançı ilə işləyən şəxs
- Müalicə edən və ya kömək edən hər hansı şəxs



## Yarış müddətinə dair yeni tərif

**Yarış müddəti -** Yarışdan bilavasitə əvvəlki gün saat **23:59**-dan etibarən başlayan və yarışmanın bitdiyi ana qədər nəzərdə tutulan zaman kəsiyi hesab edilir (Dopinq Nəzarəti Prosesinin başa çatması daxil olmaqla).

**Yarışdan öncə Beynəlxalq Federasiyanın qaydaları ilə tanış olun və iştirak edəcəyiniz yarış üçün «Yarış müddəti»ni dəqiqləşdirin.**

Beynəlxalq federasiya xüsusi səbəblər yarandıqda ÜADA-ya müraciət edərək «Yarış müddəti»nə dair tərifə dəyişiklik edə bilər.

Əgər tərifin dəyişməsi ilə əlaqədar müraciət ÜADA tərəfindən təsdiq edilərsə Əsas Tədbir Təşkilatçısı yarış müddəti üzrə yeni tərifi bütün yarış müddətinə tətbiq edə bilər.

# 4 Dopinq Nəzarəti 2021

## Yeni Dopinq Nəzarəti Prosesi (DNP)



Dopinq Nəzarəti Məntəqəsində spirtli içkinin təminatı və istifadə edilməsi qadağandır.




İdmançı Dopinq Nəzarəti Formasında göstərilən nümunə toplanma avadanlığının tamlığına və istifadə müddətinin yararlı olmağına əmin olmalıdır.



# 18 yaşına çatmamış idmançılar dopinq testi zamanı

**Yeni** Dopinq testi zamanı DNİ-dan başqa da ikinci DNİ/Şaperon iştirak etməlidir.



# Sidiyin nisbi sıxlığı



| | |
|---|---|
| 150 ml-dən çox olduqda | 1.003 |
| 90-150 ml arası | 1.005 |

Nisbi sıxlıq keçərlidir

**Lazımi nisbi sıxlığın təminatı idmançının məsuliyyətidir**

- Bildirişdən sonra 1 L-dən artıq maye qəbul etmək məsləhət görülmür;
- Yeni — 1 L-dən çox mayenin qəbulu nəticəsində nisbi sıxlıq aşağı düşərsə bu qayda pozuntusu kimi qeydə alına bilər.

**İlk nümunənin nisbi sıxlığı aşağı olarsa idmançı növbəti nümunəni təqdim etməlidir. Bu zaman idmançı daima nəzarət altında qalacaq və bu müddət ərzində hər hansı mayenin qəbul edilməsi qadağandır. Bu tələblərə riayət olunmasa DNİ bunu Dopinq Nəzarəti Formasında qeyd edəcək və bu antidopinq qayda pozuntusu hesab edilə bilər.**

# Qan Toplanma Prosesi



**Qan Toplama İnspektoru idmançının fəaliyyətinə mənfi təsiri olmayan uyğun qoldan (işlək olmayan qol) qan almağa çalışmalıdır. Qan Toplama İnspektoru bu qolu uyğun hesab etmədiyi təqdirdə digər qoldan (işlək qol) qan ala bilər.**

**Qeyd: İdmançılardan toplanan qan nümunələrinin daşınması və ya saxlanması zamanı Temperatur Nəzarəti Cihazının (Q-tag) nömrəsi Dopinq Nəzarəti Formasında qeyd edilir.**



# Məkan məlumatı

**Yeni** Test Qrupu

2021-ci ildən etibarən «Qeydiyyata alınmış Test Qrupu» (QTQ) ilə yanaşı yeni «Test Qrupu» yaradılacaqdır. İdmançı «Test Qrupu»-na daxil edildiyi haqqında əvvəlcədən məlumatlandırılacaq.

**Bu qrupa daxil olan idmançılar aşağıdakı Məkan Məlumatlarını verməlidirlər:**



**Məşq cədvəli**



**Yarış cədvəli**



**Qaldığı (gecələdiyi) ünvan**

Qeyd: 60 dəqiqəlik zaman pəncərəsi haqda məlumatın qeyd edilməsi vacib deyil.

**Məkan məlumatı barədə ətraflı məlumat üçün** https://youtu.be/5eS9wO7nSRg

# 5 Qadağan edilmiş Siyahı 2021

- Yenilənmiş Qadağan edilmiş Siyahı **2021-ci il 1 yanvar** tarixindən etibarən qüvvəyə minir.
- Yeni Siyahı idman ictimaiyyətinin daha rahat istifadəsi üçün uyğunlaşdırılıb.
- Girişdə Siyahıda istifadə olunan bəzi **terminlərə dair aydın izahat** verilib.
- Hər sinifə dair başlıqlarda maddə və ya üsulların Yarış müddətində və ya Yarışdan Kənar müddətdə istifadəsinə dair qadağalar barədə məlumat qeyd edilib.
- Sinif və alt siniflər üçün başlıqların **dəqiq tərifləri** verilib.
- İstisnalar və qeydlərə dair daha **dəqiq kateqoriyalar** müəyyənləşdirilib.
- Siyahının sonunda **yeni göstəricilər** əlavə edilib.
- Siyahıya müxtəlif siniflərə aid maddələrin təyin edilə biləcəyi xəstəlik nümunələrinin tam olmayan siyahısı əlavə edilib.

https://www.amada.az/medicine/prohibited-list/



# Hər zaman qadağan edilmiş maddələr və üsullar

dəyişikliklər

(Yarış müddətində və Yarışdan kənar müddətdə)

**S2 -** Peptid Hormonları, Böyümə Faktorları, onlara oxşar Maddələr və Mimetiklər

**S2** - **Dəyişən (Transforming) Böyümə Faktoru-beta (TGF-β)** siqnal inhibitorlarının qısaldılmış adı əvəzinə tam adı daxil edilmişdir;

Hipoksiyaya səbəb olan faktor (HIF) aktivləşdirici maddə nümunəsi olaraq **IOX2** əlavə olunub.

dəyişikliklər

# Hər zaman qadağan edilmiş maddələr və üsullar

(Yarış müddətində və Yarışdan kənar müddətdə)

## S3 - Beta-2 Aqonistləri

**Arformoterol** və **Levosalbutamolun** istifadəsi qadağan edilir.

**Qəbuluna icazə verilmiş doza hədləri:**

Vilanterol (inhalyasiya şəklində) - ***25mq/24 saat istifadə edilə bilər.***

İnhalyasiya yolu ilə qəbul edilən Vilanterolun istehsalçının məsləhət gördüyü maksimum dozaya qədər istifadəsinə icazə verilir. Doza 25 mq ifadə edilir ki, bu da mənimsənilən 22 mq dozaya ekvivalentdir.

dəyişikliklər

# Hər zaman qadağan edilmiş maddələr və üsullar

**(Yarış müddətində və Yarışdan kənar müddətdə)**

**S4 -** Hormon və Metabolik Modulyatorlar

**S5 -** Diuretiklər və Gizlədici Agentlər

**S4** - **4.2 və 4.3 alt sinifləri birləşdirilmişdir.** Terminologiyadakı bu aydınlaşdırma dopinq əleyhinə məqsədlər üçün bütün bu maddələrin estrogen reseptorlarına bağlanma və estrogen təsirinin qarşısını alan ortaq bir mexanizmlə təsir etdiyini əks etdirir. Bu dəyişiklik bu kateqoriyaya heç bir maddə əlavə edilməsinə və ya çıxarılmasına səbəb olmayıb.

**S5** - Karbonik anhidraza inhibitorlarının **yalnız yerli oftalmoloji** istifadəsi üçün icazə verilir.

dəyişikliklər

# Hər zaman qadağan edilmiş maddələr və üsullar

**(Yarış müddətində və Yarışdan kənar müddətdə)**

## M2.2 - Kimyəvi və fiziki manipulyasiyalar

Məcəlləyə 2021-ci ildə əlavə edilmiş **4.2.2. Maddəsinə** əsasən qadağan edilmiş **M2.2 üsulu** **«xüsusi» (specified)** kimi müəyyən edilir, yəni 12 saat ərzində 100 ml artıq  venadaxili infuziya və/ və ya inyeksiya yolu ilə yeridilmə «xüsusi» üsul kimi qeyd edilir. İstisnanı rəsmi qaydada xəstəxanada alınmış müalicə, cərrəhi prosedur və ya klinik diaqnostik tədqiqat üçün aparılmış müdaxilələr təşkil edir.

Müdaxilənin dopinq məqsədilə aparılmadığı sübut edilərsə idmançıya tətbiq edilmiş sanksiya müddəti qısaldıla bilər.

# Yarış müddətində qadağan edilmiş maddələr və üsullar

dəyişikliklər

## S6

Yerli istifadə üçün imidazol törəmələrinin nümunələri istisnalara əlavə edilib: **brimonidine, clonazoline, fenoxazoline, indanazoline, naphazoline, oxymetazoline və xylometazoline.**

**Qlükokortikoidlərin** nümunələrinin əlavə adları siyahıya daxil edilib ki, bu da aktiv maddənin daha aydın qeyd edilməsi məqsədini daşıyır.

# Yarış müddətində qadağan edilmiş maddələr və üsullar

dəyişikliklər

## Asılılıq yaradan maddələr:

**S6 -** kokain, metilenedioksimetanfetamin (ekstazi)

**S7 -** diamorfin (heroin)

**S8 -** tetrahidrokanabinol

Yarış müddətində bu qruplara daxil olan **asılılıq yaradan maddələrdən** istifadə halı təsdiq edilərsə sanksiya müddəti **3 ay ola bilər:**

1. **Bu maddələrdən istifadə yarışdan kənar müddətə təsadüf edilərsə;**
2. **İdman göstəricilərinə təsir göstərmədiyi müəyyən edilərsə.**

! Əgər idmançıya bu maddələrdən istifadə səbəbli sanksiyalar tətbiq edilibsə, o, **könüllü olaraq asılılıq yaradan maddələrdən müalicə və reabilitasiya üzrə proqrama qoşularsa** və bu proqram tərəfindən təyin edilmiş müalicəni qənaətbəxş şəkildə başa çatdırarsa sanksiya müddəti **bir ayadək azaldıla bilər.**

# Yarış müddətində qadağan edilmiş maddələr və üsullar

dəyişikliklər - 2022

## S9 - Qlükokortikoidlər

**Yarış müddətində** qlükokortikoidlərin tətbiq olunma yollarının hamısının *(venadaxili, əzələdaxili, periartikulyar, intraartikulyar, peritendinoz, intratendinoz, epidural, intratekal, intrabursal, intralezional (məs. İntrakeloid), intradermal və dərialtı)* **qadağan edilməsi** təsdiqləndi.

**DİQQƏT!** İnyeksiya edilən qlükokortikoid yollarının qadağan edilməsi və yeni qaydaların tətbiqi **1 yanvar 2022-ci il** tarixindən etibarən qüvvəyə minməsinə dair qərar verilib.

## Bəzi idman növlərində qadağan edilmiş maddələr və üsullar

dəyişikliklər

**P1 -** Beta-blokatorlar

**Nebivolol** nümunə kimi siyahıya əlavə edilib.



dəyişikliklər

# Monitorinq proqramında dəyişikliklər

- Tələb olunan məlumatları əldə edildiyinə görə beta-2 aqonistlərinin hər hansı bir kombinasiyası siyahıdan çıxarılmışdır.

- Aşağı miqdarda salmeterol və vilanterol tapıntıları terapevtik istifadə və sui-istifadə risklərini daha yaxşı izləmək üçün Monitorinq Proqramına daxil edilmişdir.



# 6 Terapevtik İstifadə üçün İstisnalar (TİI)

**ÜADA Antidopinq Məcəlləsi**
**Maddə 4.4.1**

Qadağan edilmiş Maddə və onun Metabolitlər və ya Markerlərinin mövcudluğu və/və ya Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsuldan İstifadə yaxud İstifadə Cəhdi, Sahiblik, Tətbiq yaxud Tətbiq Cəhdi Terapevtik İstifadə üçün İstisnalar (TİI) üzrə Beynəlxalq Standarta uyğun olaraq verilmiş TİI müddəalarına uyğundurlarsa, onlar antidopinq qayda pozuntusu hesab edilmirlər.

https://www.wada-ama.org/en/resources/therapeutic-use-exemption-tue/international-standard-for-therapeutic-use-exemptions-istue

AMADA üçün
**idmançının səhhəti**
ən vacib dəyərdir!





# Tİİ üçün nə vaxt müraciət etmək lazımdır?

**!** İstənilən dərman və ya qida əlavəsinin qəbulundan öncə idmançı aid olduğu idman federasiyasının həkimi ilə məsləhətləşməlidir!

- Əgər İdmançının hər hansı bir xəstəliyi varsa və bu xəstəliklə bağlı müəyyən dərmanları qəbul etmək məcburiyyətindədirsə;
- Əgər İdmançıya hər hansı cərrahi müdaxilənin aparlması planlaşdırılıbsa;
- Əgər idmançıya təcili təxirəsalınmaz müdaxilə tələb edilərsə (qəza, təcili cərrahi müdaxilə və s.) o, retroaktiv Tİİ üçün müraciət edə bilər.

# İdmançıların TİI üçün müraciəti

| İdmançı kateqoriyaları | TİI üçün müraciət Komitələri | TİI növü |
|---|---|---|
| **Beynəlxalq səviyyəli** idmançılar | Öz idman növü üzrə Beynəlxalq Federasiyanın TİİK | **Proaktiv** **Retroaktiv** |
| **Milli səviyyəli** idmançılar | - Milli antidopinq təşkilatının TİİK<br>- Əsas Tədbir Təşkilatçısının TİİK | **Proaktiv** **Retroaktiv** |
| Yeni **Digər səviyyəli** idmançılar (Milli və Beynəlxalq səviyyəli olmayan) | - Milli antidopinq təşkilatının TİİK | **Retroaktiv** əgər DNP üçün seçilərsə |

# İdmançıların TİI üçün müraciəti

**Yeni**

Digər ölkənin vətəndaşı olan milli və ya beynəlxalq səviyyəli olmayan idmançılar

1. Yarışdığı ölkənin Milli antidopinq təşkilatının TİI Komitəsinə → TİI müraciəti baxılma üçün qəbul edilməzsə
2. Yaşadığı ölkənin TİI Komitəsinə → TİI müraciəti baxılma üçün qəbul edilməzsə
3. Vətəndaşı olduğu ölkənin antidopinq təşkilatının TİI Komitəsinə → TİI müraciəti baxılma üçün qəbul edilməzsə
4. Nəticələrin Emalına cavabdeh ölkənin TİI Komitəsinə

# Retroaktiv TİI üçün müraciət şərtləri dəyişikliklər

- Təcili və təxirəsalınmaz yardım vəziyyətləri olduqda;
- İstisna səbəblərdən İdmançı Nümunələrin toplanmasından əvvəl TİI qərarı üçün müraciət etməyə yetərli zamanı və ya imkanı olmadıqda;
- Müəyyən idman növlərinin milli (ölkə) səviyyəsində prioritetləşdirilməsi səbəbilə AMADA idmançıya TİI üçün əvvəlcədən müraciət etməyi icazə vermədikdə və ya müraciətini tələb etmədikdə;
- Əgər Antidopinq Təşkilatı Beynəlxalq və ya Milli səviyyəli olmayan idmançılardan nümunə toplanmasına qərar verərsə və idmançı terapevtik məqsədlə Qadağan edilmiş Maddə və ya Üsuldan istifadə etdikdə;

Yeni İdmançı Yarışdan kənar müddətdə terapevtik məqsədlə Yarış müddətində Qadağan edilmiş Maddədən istifadə etdikdə.





# Tİİ üçün müraciət şərtləri

dəyişikliklər

(proaktiv və retroaktiv)

- Diaqnozu qoyulmuş tibbi vəziyyətin müalicəsi və müayinəsi üçün istifadə edilən Qadağan edilmiş Siyahıya daxil olan maddə müvafiq müayinə nəticələri ilə dəstəkləndikdə;
- Qadağan edilmiş Siyahıya daxil olan maddənin terapevtik istifadəsindən sonra idmançının idman göstəricilərinin artması gözlənilmədikdə;
- Qadağan edilmiş Siyahıya daxil olan maddədən başqa terapevtik alternativ mövcud olmadıqda;
- Qadağan edilmiş Siyahıya daxil olan maddənin istifadəsinə ehtiyac əvvəlki İstifadə zamanı qadağan edilmiş maddə və ya üsulun nəticəsində (Tİİ Qərarı olmadan) yaranmadıqda.

# TİI Ərizə Formasına əlavə ediləcək məlumat və sənədlər

**! İdmançı diaqnostika və müalicə ilə əlaqədar bütün sənədləri tam şəkildə saxlamalıdır.**

## 1 İdmançı haqqında məlumat

Ad, soyad, doğum tarixi(gün/ay/il), idman növü, dərəcə, sağlamlıq imkanlarında məhdudiyyət haqqında məlumat, əlaqə məlumatları

## 2 Tibbi məlumat

Diaqnoz və dərman vasitəsindən istifadənin əsaslandıırırlması

## 3 Müalicənin detalları

Müalicə müddətində istifadə edilmiş qadağan edilmiş maddənin (dərman vasitəsinin) adı, dozası, istifadə üsulu (v/d, ə/d, d/a inyeksiya, tablet, və s.), istifadə tezliyi, müalicənin müddəti

## 4 Digər təsdiq edici sənədlər

Laborator – instrumental müayinələrin nəticələri, xəstəlik tarixi, şüa diqnostik müayinələrdən əldə olunmuş görüntülər, mümkün olduqda orijinal epikriz və resept.

Təqdim edilən bütün tibbi sənədlər ingilis dilinə tərcümə olunmalıdır.

*Dərman vasitələrinin alınmasını təsdiq edən qəbz.*



AMADA

TERAPEVTİK İSTİFADƏ ÜÇÜN İSTİSNALAR (TİI) ƏRİZƏ FORMASI 2020

Zəhmət olmasa, bütün sahələri baş hərflərlə və ya çap formasında doldurun. İdmançılar 1-ci, 5-ci, 6-cı və 7-ci bəndlərini; həkimlər isə 2-ci, 3-cü və 4-cü bəndlərini doldurmalıdırlar. Yanlış və natamam müraciətlər geri qaytarılacaq və təkrar olaraq aydın və tam formada tələb ediləcəkdir.

1. İdmançı haqqında məlumat

Soyad: ______ Ad: ______

Qadın ☐ Kişi ☐ Doğum tarixi(gün/ay/il): ______

Ünvan: ______

Şəhər: ______ Ölkə: ______ Poçt kodu: ______

Tel. : ______ E-mail: ______
(beynəlxalq kodla)

İdman: ______ Növ/Kateqoriya: ______

Dərəcəniz : Milli Dərəcəli İdmançı ☐ Beynəlxalq Dərəcəli İdmançı ☐

Beynəlxalq və ya Milli İdman Təşkilatı :

______

Əgər siz məhdud sağlamlıq imkanları olan idmançısınızsa, məhdudluğun növünü qeyd edin:

______

2. Tibbi məlumat *(tələb olunarsa ayrı vərəqdə davam edin)*:

Diaqnozlar:

______

Əgər qadağan olunmayan dərman idmançının vəziyyətini yaxşılaşdırmaq üçün istifadə oluna bilərsə, zəhmət olmasa, qadağan olunmuş maddənin istifadəsi üçün klinik əsasnaməni təqdim edin:

______

1

# Terapevtik İstifadə üçün İstisnalar


Şərh:

*Diaqnozu təsdiqləyən sənədlər ərizəyə əlavə olunub onunla göndərilməlidir. Tibbi məlumat, xəstəlik tarixi, müayinələrin müvafiq nəticələri, laborator tədqiqatlar və şüa diaqnostikasının nəticələri və görüntüləri əlavə olunmalıdır. Orijinal epikriz və nəticələrin surətləri mümkün olduqca əlavə edilməlidir. Klinika şəraitində mümkün olan qədər sübutlar obyektiv olmalıdır. Sübutlar olmayan vəziyyətlərdə, müstəqil tibbi ekspertlərin rəyləri bu ərizəyə əlavə olunmalıdır.*

ÜADA həkimlərə tam və hərtərəfli formada TİI ərizələrinin hazırlanması üçün bir sıra təlimatları təqdim edir. Bu TİI Həkim Təlimatları ÜADA-nın https://www.wada-ama.org və AMADA-nın vebsaytında "Tibbi Təlimat" axtarış terminini daxil etməklə əldə edə bilərsiniz. Təlimatlar idmançılarda tez-tez rast gəlinən və qadağan olunmuş maddələrlə müalicə aparılması tələb olunan bir sıra tibbi hallarına aiddir.

3. Müalicənin detalları

| Qadağan olunmuş maddələr: | Doza | İstifadə etmə yolu | İstifadə qaydaları (saatda/gündə/ayda neçə dəfə) | Müalicənin müddəti |
|---|---|---|---|---|
| 1. Generikin adı | | | | |
| 2. | | | | |
| 3. | | | | |

İcazə üçün müraciət etdiyiniz dərman vasitəsini və ya üsulunu nə zaman istifadə etmisiniz/etməyə planlaşdırırsınız?

Yarış zamanı ☐ Yarışdan kənar ☐ Növbəti yarışın tarixi__________

4. Tibbi personalın bəyanatı

Təsdiq edirəm ki, yuxarıda 2-ci və 3-cü bəndlərdə məlumatlar düzgündür və yuxarıda göstərilən müalicə tibbi cəhətdən qaydalara uyğundur.

Ad: ______________________

Tibbi ixtisas: ______________________

Ünvan: ______________________

Tel.: ______________________

Faks: ______________________

E-mail: ______________________

Tibbi heyətin imzası: ______________ Tarix: __________

2

Göstərilən bəndlər həkim tərəfindən doldurulduqdan sonra sənədlər:

- **ADAMS-da idmançının profilinə yüklənməli**

və ya

- **tue@amada.az** və ya **tue@if*.org** elektron poçt ünvanına göndərilməlidir.

*if – Beynəlxalq federasiya(international federation)
Hər bir idmançı öz beynəlxalq federasiyasına müraciət etməlidir.

**Yeni**

**İcazə üçün müraciət etdiyiniz dərman vasitəsini və ya üsulunu nə zaman istifadə etmisiniz/etməyə planlaşdırırsınız?**

Yarış zamanı ☐ Yarışdan kənar ☐ Növbəti yarışın tarixi__________

https://www.amada.az/medicine/tue/



AMADA
STAY CLEAN

TUE No./Numéro de AUT
1234567
ADO No./Numéro d'ADO

CERTIFICATE OF APPROVAL FOR THERAPEUTIC USE
*CERTIFICAT D'AUTORISATION D'USAGE À DES FINS THÉRAPEUTIQUES*

**Athlete Details/*Renseignements sur l'athlète***

Surname/*Nom de famille* Given Name/*Prénom* Gender/*Sexe*

Date of Birth/*Date de naissance* Sport/*Sport* Discipline/*Discipline*

Competition Name /*Nom de la compétition* Registered Testing Pool /*Groupe cible*

**Medical Information/*Renseignements médicaux***

The Athlete has received approval for the use of the prohibited substances(s) listed below under the conditions stipulated in this document. / *L'athlète a reçu l'autorisation d'utiliser la (les) substance(s) interdite(s) citée(s) ci-dessous selon la (les) condition(s) stipulée(s) dans ce document.*

Effective date/*Date d'entrée en vigueur:*

Prohibited Substance/*Substance interdite:*

Dosage/*Dosage* Frequency/*Fréquence* Route/*Voie* Expiration/*Expiration*

Conditions and Comments/*Conditions et commentaires:*

Prohibited Substance/*Substance interdite:*

Dosage/*Dosage* Frequency/*Fréquence* Route/*Voie* Expiration/*Expiration*

Conditions and Comments/*Conditions et commentaires:*

**Attention athlete**: the dose, method and frequency of administration as prescribed by your physician have to be followed meticulously. Please carry a copy of this form with you at all times. This form should be presented to the doping control officer at the time of testing.
***Athlète**: les posologies, voies et fréquences d'administration doivent être méticuleusement respectées conformément aux prescriptions de votre médecin. Gardez une copie de ce formulaire en tout temps. Ce formulaire devrait être présenté à l'agent(e) de contrôle antidopage au moment du contrôle.*

**Authorized by/*Autorisée par:***

AMADA - Azerbaijan National Anti-Doping Agency (AMADA)

Date

Phone :

***TUE Decision***

Name of the TUEC Chair:

# Tİİ komitəsi tərəfindən verilən qərar

- Tİİ müraciətinə adətən 21 günü ərzində baxıldığı üçün müraciət ən az 1 ay əvvəldən edilməlidir.
- İdmançı eyni tibbi vəziyyətə görə Tİİ üçün yalnız bir Antidopinq Təşkilatına müraciət edə bilər və eyni tibbi vəziyyət üçün eyni anda birdən çox Tİİ-yə sahib ola bilməz.

**Yeni** İdmançının Milli Antidopinq Təşkilatından Tİİ üzrə müraciəti təsdiq edilərsə Milli səviyyədə yarışlarda digər ölkələrdən Tİİ alınmasına ehtiyac qalmır.

- İdmançı Tİİ-yə sahib olarsa DNP zamanı dairəyə alınan kod təqdim edilir (1234567).

# İnformasiya Məxfiliyi

Yeni

- TİI müraciətilə əlaqəli bütün məlumatlar Beynəlxalq Standarta uyğun olaraq səlahiyyətli TİİK üzvlərinə, ehtiyac olarsa, müstəqil tibbi və elmi mütəxəssislərə və digər aidiyyatı şəxslərə (ÜADA işçiləri daxil olmaqla) təqdim olunacaqdır.

- İdmançının müraciətinin nəzərdən keçirilməsi və qərar verilməsi üçün TİİK-in lazımlı hesab etdiyi hər hansı bir sağlamlıq məlumatları tələb edildikdə İdmançı öz həkiminə (həkimlərinə) tələb olunan tibbi məlumatı komitəyə təqdim olunması üçün icazə verməlidir.

# TİI-nin son istifadə tarixi

TİI Beynəlxalq Standartı 2021 - Maddə 6.11 görə hər bir TİI qərarın müəyyən müddəti vardır, bu müddət TİI Komitəsinin müvafiq qərarında göstərilir və bu müddət bitdikdə, TİI qərarı avtomatik olaraq öz qüvvəsini itirir. Yeni müraciət əvvəlki qərarın qüvvədən düşməsindən **1 ay əvvəl** edilməlidir.

Yeni

TİI Beynəlxalq Standartı 2021 - Maddə 6.14 görə müsbət TİI qərarı verildikdən sonra idmançıya *Qadağan edilmiş Maddə və ya Üsulun doza, qəbul tezliyi və ya müddətində dəyişiklik olunursa* bu halda idmançı **yeni TİI qərarı** üçün müraciət etməlidir.

Yeni

İdmançılar TİI üçün mümkün qədər tez müraciət etməlidirlər. Yarış müddətində qadağan edilmiş maddələrdən istifadə edildiyi halda idmançılar TİI üçün növbəti yarışdan **ən azı 30 gün öncə** müraciət etməlidirlər.

# 7 Antidopinq Qayda Pozuntuları- 2021

## Antidopinq Qayda Pozuntuları bunlardır:

1. İdmançının nümunəsində qadağan edilmiş maddənin olması;
2. İdmançı tərəfindən qadağan edilmiş maddə yaxud üsulun istifadəsi və ya istifadə edilməsi cəhdi;
3. İdmançı bildirişdən sonra nümunə toplanmasında (dopinq testində) iştirakdan imtina ,yayınma, nümunəni təqdim etməmə;
4. İdmançının məkan məlumatının təmin edilməməsi və buraxılmış testlər;
5. ☆ İdmançı və ya digər şəxs tərəfindən Dopinq Nəzarəti Prosesinə qanunsuz müdaxilə;
6. Qadağan edilmiş maddə yaxud üsula sahiblik;
7. İdmançı və ya digər şəxs tərəfindən qadağan edilmiş maddə yaxud üsulun qanunsuz dövriyyəsi və ya dövriyyə cəhdi;
8. İdmançı və ya digər şəxs tərəfindən qadağan edilmiş maddə yaxud üsulun idmançıya tətbiqi və ya tətbiqinə cəhd;
9. ☆ İdmançı və ya digər şəxs tərəfindən antidopinq qayda pozuntusunda əlbirlik, yaxud əlbirlik cəhdi;
10. ☆ İdmançı və ya digər şəxslərlə qadağan edilmiş əməkdaşlıq;
11. Yeni İdmançı və ya digər şəxslərə qarşı hədə-qorxu.



# Antidopinq Qayda Pozuntuları

**dəyişikliklər**

**5** **İdmançı və ya digər şəxs tərəfindən Dopinq Nəzarəti Prosesinə qanunsuz müdaxilə;**

Bu antidopinq qayda pozuntusunun mənası genişləndirilib və bir sıra əməlləri əhatə edir.

**9** **İdmançı və ya digər şəxs tərəfindən antidopinq qayda pozuntusunda əlbirlik, yaxud əlbirlik cəhdi;**

Əlbirlik üzrə antidopinq qayda pozuntusuna cəhd xarakterli əməllər də daxil edilib. Artıq Əlbirliyə Cəhd antidopinq qayda pozuntusudur.

**10** **İdmançı və ya digər şəxslərlə qadağan edilmiş əməkdaşlıq;**

Bu qayda pozuntusunun baş verməsi üçün artıq Antdopinq Təşkilatı tərəfindən öncədən diskvalifikasiya müddətində olan köməkçi heyəti barədə bildirişin verilməsi zəruri deyil. Lakin, pozuntu baş verdikdə, Antidopinq Təşkilatı sübut etməlidir ki, idmançı diskvalifikasiya müddətində olan köməkçi heyət barədə məlumatlı olmuşdur.



Yeni

# 11-ci Antidopinq Qayda Pozuntusu

## 11 İdmançı və ya digər şəxslərə qarşı hədə-qorxu

- Antidopinq qayda pozuntusu barədə məlumat vermək istədiyi üçün təzyiqin göstərilməsi
- Antidopinq qayda pozuntusu barədə məlumat verildiyi üçün cəzalandırma ( fiziki, mənəvi, iqtisadi vəziyyətinə və yaxud ailə üzvlərinə, yaxınlarına )

# Sanksiyalar və onların tətbiqinə dair

## dəyişikliklər

- Əlbirlik üzrə sanksiya dəyişdirilmişdir və buna görə **2 ildən ömürlük diskvalifikasiya** müddəti tətbiq edilir.
- **Ağırlaşdırıcı hallar** əlavə edilmişdir. Bu hallarda tətbiq edilən diskvalifikasiya müddətinə əlavə **2 ilədək müddət əlavə** edilə bilər.
- Antidopinq qayda pozuntularının araşdırmaları zamanı **saxta davranış** hallarına görə (məsələn saxta sənədlərin təqdim edilməsi) əlavə olaraq **2 ildən 4 ilədək diskvalifikasiya** müddəti tətbiq edilə bilər.
- **Əhəmiyyətli Yardım göstərən idmançı** və ya digər şəxsin qayda pozuntusu ilə bağlı məlumatları ÜADA tərəfindən razılıq verildikdə **ictimaiyyətə açıqlanmaya** bilər.
- 4 illik diskvalifikasiya müddəti tətbiq olunduğu halda, **idmançı 20 gün ərzində qayda pozuntusunu qəbul edərsə**, bu zaman **diskvalifikasiya müddəti 1 il azaldıla bilər.**
- İdmançı və ya digər şəxs, ÜADA və AMADA-nın birgə razılığı əsasında işin mövcud hallarına əsasən razılaşıdırılmış sanksiya tətbiq oluna bilər. Bu zaman tərəflər mübahisənin həlli üzrə müqavilə imzalayır və bu müqavilədən apellyasiya qaydasında şikayət verilə bilməz.
- Şərti Kənarlaşdırılma zamanı idmançı yarışda və ya təlim-məşq toplantısında iştirak edərsə, bu zaman həmin şərti kənarlaşdırmanın müddəti yekun qərarın müddətindən çıxılmayacaq.

# 8 İdmançıların Antidopinq Hüquqları Aktı

## İdmançının əsas hüquqları

Yeni

- **Bərabər imkanlar** - İdmançıların həm məşq, həm də yarışma müddətində dopinqdən istifadə edən idmançılardan, idmançıların köməkçi heyəti və digər şəxsdən azad mühitdə iştirak etmələri üçün bərabər imkanlara malik olmaq hüququna malikdirlər

- **Bərabərhüquqlu və ədalətli test proqramları** - Hər bir idmançı Məcəllə və Beynəlxalq Standartların tələblərinə uyğun olaraq test olunmaq hüququna malikdir

- **Tibbi müalicə və sağlamlığın qorunması hüququ** - İdmançı dopinq nəticəsində fiziki və psixoloji sağlamlığına zərər verə biləcək bütün təzyiqlərdən azad olmaq hüququna malikdir. İdmançı səhhəti ilə bağlı Məcəllə və beynəlxalq standartlara uyğun olaraq Terapevtik İstifadə üzrə İstisnalar üçün müraciət etmək hüququna malikdir.

https://www.wada-ama.org/en/resources/anti-doping-community/athletes-anti-doping-rights-act



Yeni

# İdmançının əsas hüquqları

- **Ədaləti tələb etmək hüququ** – İdmançının ədalət mühakiməsinə çıxışı, o cümlədən dinlənilmək, müstəqil və qərəzsiz qurum tərəfindən ağlabatan müddət ərzində ədalətli dinləmələrin keçirilməsini və qərarın verilməsini tələb etmək hüququna malikdir. Apellyasiya müraciəti zamanı idmançı ədalətli, qərəzsiz, müstəqil dinləmələrin keçirilməsinə, öz hüquqlarının idmançının vəsaiti hesabına cəlb edilmiş vəkil tərəfindən qorunması və ağlabatan müddətdə qərarın verilməsi hüququna malikdir.
- **Hesabatlılıq hüququ** – İdmançının hər hansı antidopinq təşkilatının Məcəlləyə uyğun olmayan əməlindən müvafiq şəxslərə və ya qurumlara şikayət vermək hüququ.
- **İfşa etmə hüququ** – Digər idmançı, idmançının köməkçi heyəti üzvü və ya digər şəxslərin dopinq əməli ilə bağlı anonim və ya məxfi məlumat çatdırma mexanizmləri vasitəsilə dopinqlə əlaqədar məlumat çatdırma hüququna malikdir. İdmançılar ehtimal edilən antidopinq qayda pozuntusu haqqında vicdanla məlumat vermək və buna görə təzyiq və hədə-qorxulara məruz qalmamaq hüququna malikdir.



Yeni

# İdmançının əsas hüquqları

- **Təhsil hüququ** – İdmançı antidopinq təşkilatı tərəfindən antidopinq haqqında məlumat almaq hüququna malikdir.
- **Şəxsi məlumatların qorunması hüququ** – İdmançı antidopinq təşkilatı tərəfindən toplanılan , emal edilən, açıqlanan  şəxsi məlumatlarının ədalətli, qanuni və təhlükəsiz şəkildə istifadə olunması hüququna malikdir. Həmçinin istifadə ilə bağlı məlumatlı olmaq, məlumatın nüsxəsini əldə etmək və istifadə ehtiyacı bitdikdə məlumatların ləğv edilməsini tələb etmək hüququna malikdir.
- **Xüsusi (qorunan) şəxslərin hüququ** – Bu qrupa aid idmançı yaş və hüquqi meyarlara əsasən əlavə müdafiə hüququna malikdir. Həmçinin onlara dair tətbiq edilmiş sanksiyalar barədə məlumatlar ictimaiyyətə açıqlanmamalıdır.

Yeni

# İdmançının əsas hüquqları

## Dopinq Nəzarəti Prosesində (DNP) idmançıların hüquqları:

- DNP həyata keçirən şəxsin akkreditasiya sənədini tələb etmək;
- DNP haqqında əlavə məlumat əldə etmək;
- DNP həyata keçirən təşkilat haqqında məlumat almaq;
- DNP üçün götürüləcək nümunənin növü və şərtləri haqqında məlumat almaq;
- DNP zamanı maye qəbul etmək (istisna-aşağı nisbi sıxlıq olduqda);
- Nümayəndənin iştirakını tələb etmək;
- Dopinq Nəzarəti Məntəqəsinə üzürlü səbəb olduqda gecikmək;
- Öz hüquq və öhdəlikləri haqqında məlumat almaq;
- DNP ilə əlaqədar bütün şübhəli məqamların sənədləşməsini tələb etmək;
- Dopinq Nəzarəti Formasının surətini tələb etmək.





Yeni

# İdmançının əsas hüquqları

### B nümunəsinin analiz edilməsi hüququ

İdmançı A nümunəsinin analizi nəticəsi ilə razılaşmadıqda B nümunəsinin analizini tələb etmək hüququna malikdir. B nümunəsinin analiz nəticəsi A nümunəsinin analizini təsdiq etməzsə və işin hallarına uyğundursa, idmançı yarışlarda iştirak edə bilər.

# Məcəllənin tətbiqi ilə bağlı qeydlər

- Beynəlxalq Olimpiya Komitəsi (BOK), Beynəlxalq Paralimpiya Komitəsi (BPK) və Beynəlxalq Federasiya (BF) tərəfindən yerli Milli Olimpiya Komitəsi (MOK), Milli Paralimpiya Komitəsi (MPK) və ya Milli Federasiyaya (MF) qarşı intizam tədbirlərinin növü kimi həmin qurumların üzv idmançılarını öz tədbirlərindən uzaqlaşdıra bilər. Lakin, hər bir halda Beynəlxalq Olimpiya Komitəsi, Beynəlxalq Paralimpiya Komitəsi və Beynəlxalq Federasiya əlavə olaraq həmin qurumlara qarşı Məcəlləyə uyğunsuzluq üzrə tədbirlərə başlaya bilər.

- Məcəlləyə imza olan qurumlar tərəfindən Məcəlləyə və antidopinq qaydalarına əsasən şərti olaraq kənarlaşdırılmış və ya diskvalifikasiya müddətində olan, habelə Məcəllənin tətbiqinə daxil olmayan, lakin *son 6 il ərzində* antidopinq qayda pozuntusu təşkil edən birbaşa və qəsd xarakterli əməl törətmiş şəxslə antidopinq təhsil və reabilitasiya proqramları istisna olmaqla, dopinq nəzarəti, idman hazırlığı və ya ona dair tibbi xidmət sahəsi, yaxud nəzarət və ya idarəetmə funksiyasını yerinə yetirmək məqsədilə əmək və ya mülki xarakterli müqavilə bağlamamalıdır və ya belə hal sonradan aşkarlandıqda, qanunvericiliklə nəzərdə tutulmuş qaydada bağlanmış müqavilə ləğv etməlidir.

- Qadağan edilmiş siyahıdan hər hansı maddə çıxarılarsa, həmin maddə üzrə öncə qayda pozuntusunu törətmiş şəxslər diskvalifikasiya müddətinin azaldılması üçün müraciət edə bilərlər.

# 9 Məxfi Məlumatlar

Dopinq istifadəsi ilə bağlı anonim və ya məxfi məlumat çatdırmaq üçün:

https://www.amada.az/policy/

“Susma! Dopinqə qarşı mübarizəyə qoşul” onlayn müraciət formasından istifadə edin.



# 10 İdmançı üçün elektron poçt ünvanının vacibliyi



**İdmançı vacib məlumatların vaxtında alınması üçün elektron poçt ünvanına mütləq şəkildə sahib olmalıdır.**

- Antidopinq Maarifləndirmə
- Dopinq Nəzarəti Prosesi
- Məkan Məlumatı
- Antidopinq Qayda Pozuntuları
- Digər rəsmi məktublar və s.

# Sual və müraciətləriniz üçün

Ümumi

office@amada.az

Hüquqi məsələlərlə bağlı

rm@amada.az

Terapevtik məqsədlə qadağan edilmiş maddələrlə bağlı

tue@amada.az

Məkan Məlumatı və idmançıya aid AMADA formaları ilə bağlı

adams@amada.az

# Diqqət

Bu təqdimat maarifləndirmə məqsədini daşıyır. Hər bir halda bu təqdimatda istifadə edilən mətn rəsmi sənədlərin mətnindən fərqli ola bilər. Bunun üçün Ümumdünya Antidopinq Məcəlləsi və Beynəlxalq Standartların rəsmi mətninə istinad etməyiniz tövsiyə olunur.

WORLD ANTI-DOPING AGENCY
play true

https://www.wada-ama.org/

AMADA
STAY CLEAN

Diqqətiniz üçün

# TƏŞƏKKÜR EDİRİK!




office@amada.az

amada.az

/amada_aze